# Azərbaycan jurnalistlərinin VI qurultayı keçirildi

İyulun 11-də Azərbaycan Mətbuat Şurasının VI qurultayı keçirildi. Öncə qurultay iştirakçıları Fəxri xiyabanda ümummilli lider Heydər Əliyevin və Azərbaycan milli mətbuatının banisi Həsən bəy Zərdabinin məzarını ziyarət etdilər.

Sonra Rəşid Behbudov adına Mahnı Teatrında baş tutan ali məclis Dövlət himninin səsləndirilməsi ilə öz işinə başladı. Əvvəlcə iclas iştirakçıları ötən qurultaydan keçən dövr ərzində dünyasını dəyişmiş jurnalistlərin xatirəsini bir dəqiqəlik sükutla yad etdilər.

Azərbaycan Prezidenti İlham Əliyevin qurultay iştirakçılarına təbrik məktubunu Azərbaycan Respublikası Prezidenti Administrasiyasının İctimai-siyasi məsələlər şöbəsinin müdiri Əli Həsənov diqqətə çatdırdı.

Sonra Azərbaycan Mətbuat Şurasının sədri Əflatun Amaşov hesabat məruzəsi ilə çıxış etdi. Ə. Amaşov bildirdi ki, Azərbaycan jurnalistlərinin V qurultayından bu günədək MŞ-yə ümumilikdə 2871 müraciət daxil olub. Bunlardan 2143-ü kütləvi informasiya vasitələrində gedən materiallardan şikayətdir. İlkin mərhələdə baxılan 2871 məsələdən 1399-u katiblikdə həllini tapıb, tərəflər arasında anlaşma əldə olunub. Digər 744 halda şikayətçi və cavabdeh tərəf arasında razılığa gəlinmədiyindən məsələlər və onlarla bağlı toplanmış materiallar baxılmaq üçün şuranın müvafiq komissiyalarına təqdim edilib.

Nəzarət-Təftiş Komissiyasının sədri Qadir İbrahimlinin hesabatı da dinlənildikdən sonra müzakirələr başlandı.

İlk çıxış edən Bakı Dövlət Universitetinin (BDU) professoru Şirməmməd Hüseynov vətəndaş-cəmiyyət münasibətlərinə toxunaraq qeyd etdi ki, hər bir dövlətdə hakimiyyətin üç əsas qolu cəmiyyət qarşısında nə dərəcədə məsuliyyət daşıyırsa, dördüncü hakimiyyətin nümayəndələri olan jurnalistlər də bir o qədər məsuliyyət daşıyırlar: "Bu Vətən də bizimdir, bu millət də bizimdir, bu dövlət də bizimdir. Bizim əsas işimiz dövləti, milləti, Vətəni yaşatmaqdır".

Daha sonra Milli Məclisin deputatı, "Azərbaycan" qəzetinin baş redaktoru Bəxtiyar Sadıqov, Azərbaycan Respublikası Prezidenti Administrasiyasının İctimai-siyasi məsələlər şöbəsinin müdiri Əli Həsənov çıxış etmişlər.

Sonra "Azərbaycan Mətbuat Şurasının Nizamnaməsi"nə və "Azərbaycan Jurnalistlərinin Peşə Davranışı Qaydaları"na əlavə və dəyişikliklər edilmişdir.

Fasilədən sonra Azərbaycan jurnalistlərinin VI qurultayının iştirakçılarının Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə müraciəti oxundu və səsvermənin nəticəsi açıqlandı. Azərbaycan jurnalistlərinin VI qurultayı nümayəndələrinin yekdil səsverməsi nəticəsində Əflatun Amaşov yenidən Azərbaycan Mətbuat Şurasının sədri seçildi.

Qurultayda MŞ-nin İdarə Heyətinin 17 həqiqi və 5 ehtiyat üzvdən ibarət yeni heyəti formalaşdırıldı.

Qurultayda çıxış edən digər nümayəndələr də Azərbaycan mətbuatının mövcud durumu, problemlər və qarşıda duran vəzifələrlə bağlı fikir və təkliflərini irəli sürdülər.

Beləliklə, Azərbaycan jurnalistlərinin VI qurultayı başa çatdı.

# «Gənclərin örnək götürdükləri siyasətçi»

Heydər Əliyev Mərkəzində ümummilli lider Heydər Əliyevə həsr olunmuş "Gənclərin örnək götürdükləri siyasətçi" mövzusunda tədbir keçirilmişdir. Tədbirdə Qəbələ Rayon İcra Hakimiyyətinin nümayəndəsi Varis Yaqubov, rayonun idarə, müəssisə və təşkilatlarında işləyən qabaqcıl gənclər iştirak edirdi. Tədbir iştirakçıları ulu öndərin Mərkəzdəki büstü önünə tər gül dəstələri qoyaraq onun əziz xatirəsini dərin ehtiramla yad etdilər.

Dəyirmi masa arxasında davam edən tədbirdə Azərbaycanın Dövlət Himni səsləndi. Tədbiri giriş sözü ilə açan Heydər Əliyev mərkəzinin direktoru Xəyalə İsayeva "Gənclərin örnək götürdükləri siyasətçi" mövzusunda çıxış edərək, Azərbaycanın müasir tarixinin bir qərinədən artıq mərhələsinin müdrik dövlət xadimi ümummilli lider Heydər Əliyevin adı ilə bağlı olduğunu, fenomenal siyasi və dövlət xadimi kimi tarixə qovuşmuş ulu öndərin dövlətçilik fəaliyyətinin elmi əsaslarla öyrənilməsinin Azərbaycan xalqının milli sərvəti, tükənməz xəzinəsi olan siyasi irsinin araşdırılmasının son dərəcə böyük əhəmiyyətə malik olduğunu tədbir iştirakçılarının diqqətinə çatdırdı. Müstəqil Azərbaycanı gələcəkdə də yaşadacaq və möhkəmləndirəcək gənc nəslin formalaşması üçün ümummilli lider Heydər Əliyev hakimiyyətə gəldikdən dərhal sonra bu istiqamətdə əməli tədbirlər həyata keçirməyə başladı.

Heydər Əliyev Azərbaycana rəhbərlik edərkən gənclərə həmişə xüsusi diqqət və qayğı göstərmişdir. Onların fiziki və mənəvi cəhətdən sağlam və savadlı olmaları üçün hər bir şərait yaratmışdır. Heydər Əliyev deyirdi: "Mənim üçün ən əziz nemət Azərbaycanın uşaqlarıdır, Azərbaycanın gəncləridir. Çünki Azərbaycan Prezidenti kimi mən bu gün haqqında yox, Azərbaycanın böyük gələcəyi haqqında düşünürəm". Ümummilli lider gənclərə sağlam ruhda tərbiyə almaları, əsil vətəndaş kimi yetişmələri naminə əlindən gələni əsirgəməyəcəyini bəyan etdi. Bununla da Azərbaycanda gəncliyin inkişafına təkanın və dəstəyin təməli qoyuldu.

Bu gün ölkəmizin gənclərinin hər bir sahədə inkişafına geniş şərait yaradılıb. Azərdaycan Respublikası möhkəmlənir, inkişaf edir, dünyanın sayılan sivil dövləti kimi şöhrətlənir. Ölkəmizin hər bir bölgəsində gedən sosial-iqtisadi inkişafı günbəgün gözəlləşən və yeniləşən rayonumuzun timsalında görürük. Eyni zamanda Azərbaycanın mədəni irsi yüksək səviyyədə beynəlxalq arenada təbliğ olunur. Qəbələdə keçirilən Beynəlxalq Rəsm sərgiləri, Beynəlxalq Musiqi festivalları, Beynəlxalq Konfranslar buna bariz nümunədir. 2013-cü ildə Qəbələnin MDB ölkələrinin mədəniyyət paytaxtı seçilməsi təsadüfi deyil. Mədəni irsimizin təbliği sahəsində aparılan işlərdə Heydər Əliyev Fondunun misilsiz xidmətləri var.



Bütün bunlar hamısı gənclərimizi ruhlandırır, sevindirir. Buna görədə hər bir Azərbaycan gənci cənab Prezidentimiz İlham Əliyevin uğurla həyata keçirdiyi siyasəti ürəkdən dəstəkləyir.

Rayon icra hakimiyyətinin sektor müdiri Varis Yaqubov tədbirdə "Ölkə Prezidenti İlham Əliyevin həyata keçirdiyi uğurlu siyasətin gənclər tərəfindən dəstəklənməsi" mövzusunda məruzə etmişdir. O çıxışında ötən illər ərzində ölkədə həyata keçirilən gənclər siyasəti haqqında geniş məlumat vermiş, gənclərə göstərilən diqqət və qayğıdan danışmış, onların cəmiyyətin gələcəyi üçün yüksək intellektli vətəndaş kimi yetişdirilməsində dövlətin rolu məsələlərini təhlil etmişdir.

Natiq həmçinin cənab İlham Əliyev tərəfindən reallaşdırılan strateji kursu, daxili ictimai-siyasi sabitliyi və tərəqqini yüksək səviyyədə təmin etdiyini diqqətə çatdırmışdır.

Məruzəçi Azərbaycanın iqtisadi baxımdan lider ölkəyə çevrilməsini, əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulmuş, düşünülmüş iqtisadi strategiyanın uğurla davam etdirilməsinin məntiqi nəticə sayıla biləcəyini dövlət başçısının islahatları uzun müddətli, həmçinin, yeni inkişaf erasının tempinə uyğun apamaq qətiyyətinin siyasi peşəkarlıq nümunəsi olduğunu vurğuladı.

Varis Yaqubov ölkənin tarazlı inkişafını təmin edən Dövlət Proqramlarının həyata keçirilməsi nəticəsində regionların simasının dəyişdiyindən, yerlərdə gedən sosial-iqtisadi inkişafın miqyasının daha da genişləndirildiyindən bəhs etmişdir.

Məruzədə həyatımızın bütün sahələrini əks etdirən proqramların mövcudluğu, həyata keçiriləcək layihələrin xalq tərəfindən dəstəkləndiyi, adamlarda gələcəyə daha böyük inam hissinin yarandığı qeyd edildi.

Mövzu ətrafında rayon gənclər və idman idarəsinin rəisi Fəxri Soltanov və digərləri çıxış etdilər.

Müzakirədən sonra tədbir iştirakçıları ulu öndər Heydər Əliyevə həsr olunmuş "Böyük ömrün davamı" adlı sənədli filmə tamaşa etdilər.

Yekunda tədbir iştirakçıları ekspozisiya zalında ümummilli liderin həyat və fəaliyyətini əks etdirən sənədlərlə tanış oldular.

**Oqtay MƏMMƏDOV.**